# HİCAB

**Böyük Rəhbər həzrət Ayətullah Xameneinin tövsiyələrində**
**Tərtib edən: Məhəmmədhüseyn Himmətinejad**

*Həmişə demişəm ki, çadra iranlı hicabıdır, iranlı qadın bunu seçib. Bu, yaxşı hicabdır, bununla hicabın qaydalarına riayət etmək mümkündür. İndi bəzilərinin iranlı və özümüzünkü olan hər şeydən acıqları gəlir, özümüzünkü olmayanları istəyirlər. Hər halda, çadrasız da hicaba riayət etsələr, şəriətə zidd bir iş görmüş sayılmırlar.*

## Birinci fəsil: Hicab Qərbin baxışında

### Qərbdə qadının təhqir olunması

Qadın məsələsində siz müdafiə mövqeyində durmamalı, hücuma keçməlisiniz. Onlar bizə etiraz edirlər ki, nə üçün qadınlarınız hicablıdır? Nə üçün hicab məcburidir? Əvvəla, onların özləri də hicabsızlığı məcburi etmişlər. Bu bir məsələ. Lakin onların qadın problemi olduqca böyükdür. Qərb mədəniyyətində, Qərb dünyasında qadın pozğunluğa çəkilmiş, təhqir olunmuşdur. Diplomatik müzakirələr zamanı qadın və kişinin bir-birinin yanında, çiyin-çiyinə oturması qərblilərin qadına vurduqları zərbələri düzəldə bilməz. Onlar qadından ləzzət və ehtiras aləti kimi istifadə edirlər. Onlar düşünürlər ki, bəzənməyən qadının dəyəri yoxdur; qadın bəzənib-düzənməlidir ki, kişilər onu bəyənsinlər. Bu, qadına qarşı ən böyük təhqirdir. Sizin sözünüz var və bu məsələlərdə iddialısınız.

*İslam İnqilabının Böyük Rəhbərinin Xarici İşlər Nazirliyinin əməkdaşları və İran İslam Respublikasının ölkə xaricindəki nümayəndəliklərinin başçıları ilə görüşdə çıxışından: 2004.*

## Hicab qadağası və Qərb demokratiyasının ifşası

İnqilab şüarlarının göründüyü 1978-ci ilin birinci yarısında Amerikanın ozamankı prezidenti Karter İrana gəldi və bir iclasda onun üçün hazırlanan çıxışı oxumayıb bədahətən başdan-ayağa Məhəmmədrzanı tərifləyən bir nitq söyləməyə başladı. Həmin işi bu gün də dünyanın çoxlu yerlərində görürlər, əvvəllər də görmüşlər, bundan sonra da görəcəklər. Məsələ burasındadır ki, onlar eyni zamanda demokratiya iddiası edirlər və dünya bu iddialara inanır. Biz öz cəmiyyətimizə baxdıqda bəzi təsirli və savadlı insanların, ziyalılıq iddiasında olanların demokratiyadan və xalqın səsinə hörmətdən söz düşdükdə tez Amerikanı xatırladıqlarını görürük. Onlar yalan deyirlər, demokratiyaya, azadlığa və xalqın səsinə əsla hörmət etmirlər. Bunun nümunəsi bəzi Avropa ölkələrinin məktəblərində hicabın qadağan olunmasıdır. Onlar qız şagirdlərin başörtüyü ilə sinfə gedib dərs oxumasına icazə vermirlər. Deməli, bu gün hegemonizmin əsas taktikası dünyanı və bəşəriyyəti aldatmaqdan ibarətdir.

*İslam İnqilabının Böyük Rəhbərinin Həmədan vilayətinin dini alim və ruhaniləri ilə görüşdə çıxışından: 2004.*

## Qadın hüquqları məsələsində Qərbə qarşı tələbkarlıq

Dəfələrlə dediyim kimi, qadın məsələsində bizim iddialarımız, dünyadan tələblərimiz var. Birləşmiş Millətlər Təşkilatına bağlı olan və olmayan müəssisələrin, yaxud hansısa jurnalist təşkilatının gəlib insan hüquqları adı altında hicab məsələsini və bu qəbildən olan digər məsələləri sual altına salması, tələbkarlıq etməsi məsələnin həqiqətini dəyişdirmir. Biz bu məsələdə dünyaya qarşı tələbkarıq. Dünya dedikdə Qərb dünyasını nəzərdə tuturam. Biz Qərb dünyasına müraciət edib deyirik: Siz ümumi şəkildə bütün bəşəriyyətə və xüsusi olaraq qadına xəyanət etmisiniz. Siz qadın və kişini cinsi məsələlərə çəkməklə, cəmiyyətdə qanunsuz və nizam-intizamsız cinsi ifratçılıqları genişləndirməklə və qadını cazibədar şəkildə səhnəyə çıxarmaqla ona xəyanət etmisiniz. Məlumdur ki, qadın bəşər xilqətinin gözəl hissəsidir. Bu gözəl hissə təbii formada bir qədər pərdəli olmalıdır. Bu, insan varlığının gözəl və zərif hissəsinin xislətidir. Bu pərdəni götürmək, nizam-intizam, qanun tələb edən bir şeyi, həm qadında, həm də kişidə olan cinsi instinkti nizamsız buraxmaq birinci növbədə qadına, ikinci növbədə isə qadın və kişilərdən ibarət olan bütün bəşəriyyətə ən böyük xəyanətdir. Qərb bu işi görmüşdür və təbii ki, ilk və ən böyük zərər də özlərinə toxunmuşdur.

İndi həmcinsbazlıq məsələsi Qərb dünyasında bir problemə çevrilmişdir. Düzdür, üz vurmurlar, amma həqiqət budur ki, bu gün onların mütəfəkkirləri üçün böyük və çarəsiz dərdlərdən biri budur və çıxış yolu tapa bilmirlər. Cinsi məsələlərə, qadın və kişi münasibətlərinə dair belə işlərin, bayağı və çılpaq ədəbiyyatdan istifadənin, qadın cinsini - bəşərin gözəl, zərif və örtülü hissəsini iş, peşə və reklamdan ötrü nümayiş etdirməyin, onun təbəssümündən, gözəlliyindən, bədənindən və çöhrəsindən hansısa dəyərsiz və əskik məhsulu reklam edib pul qazanmaq üçün istifadə etməyin təbii sonucu belə də olmalıdır. Qərb dünyası, Qərbin siyasəti bunu etmişdir. Bu, dinlərə məxsus deyil,

məsihilik və yəhudiliyə aidiyyəti yoxdur, təxminən 150 il öncədən dünyada başladılan yeni siyasətin nəticəsidir.

*İslam İnqilabının Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü ərəfəsində alim qadınlarla görüşdə çıxışından: 2007.*

### Hicabı ləğv etməyin iffəti məhv etməyə müqəddimə olması

Qərb qadınının fəsad bataqlığına girməsi ailə institutunun məhvinə gətirib çıxardı. Hicabı ləğv etməklə qadın elmdə, siyasətdə, yaxud ictimai fəaliyyətlərdə inkişaf etmədi. Bunların hamısı hicab və iffətlə də mümkün idi. Biz İslam quruluşunda bunu sınaqdan çıxardıq. Hicabı ləğv etmək iffəti məhv etməyə, İslam cəmiyyətində həyanı sıradan çıxarmağa müqəddimə idi və insanları çox güclü cinsi amillə məşğul etməkdən ötrü həyata keçirildi. Məqsəd onları bütün işlərdən saxlamaq idi. Bir müddət buna nail oldular, amma İran xalqının güclü imanı qoymadı. Bizim müsəlman qadınlarımız yaradılan əngəllərə rəğmən, həmişə bu təzyiqin qarşısında müqavimət göstərdilər; Rza xan gedəndən sonra bir cür, onun dövründə bir cür, tağut rejiminin digər dövrlərində də bir cür. Buna görə 1978-ci ilin yanvar ayının yeddisində Məşhəddə müsəlman qadınların hicabı müdafiə üçün keçirdikləri böyük mitinq baş tutdu. Biz o zaman sürgündə idik. Məlumat aldıq ki, mömin, müsəlman və şücaətli qadınlar belə bir hərəkət etmişlər. Bu, tağut rejiminin faciələrinin bir hissəsidir. Dini amalları, əxlaqi dəyərləri, iqtisadi inkişafı və beynəlxalq iqtidarı məhv etmək, bir xalqın sərvətlərini havaya sovurmaq həmin tağut və bədnam rejimin işlərindən idi.

*9 Yanvar qiyamının ildönümü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 2008.*

## Hicab məsələsində Qərbin hiyləgərliyi

Siz bilirsiniz ki, bir vaxt bizim ölkəmizdə hicab qadağan edildi, amma dünyada heç kim buna etiraz etmədi. Bizim qonşu ölkəmiz olan Türkiyədə hicabı qadağan etdilər və son zamanlara qədər bu ölkənin bəzi iqtidarları eyni ənənəni davam etdirdilər. Onun nümunələri son illərdə də göründü, amma dünyada heç kim buna qarşı etirazını bildirmədi və bildirmir.

Özünü inkişaf etmiş bilən, insan haqları məsələsinin onlar üçün əhəmiyyət kəsb etdiyini iddia və reklam edən Avropa ölkələrində - yəni Fransa və İngiltərədə bir neçə müsəlman qadının İslam hicabı ilə get-gəl etmələrinə və məktəblərə girmələrinə icazə vermədilər. Belə yerdə qadağa qoymağı və maneə yaratmağı icazəli bilirlər, bunda bir eyib görmürlər. Lakin cəmiyyət arasında hicabı vacib bildiyi üçün hər yerdə İslam Respublikasına qarşı etiraz sərgiləyirlər. Əgər qadınların hər hansı bir geyim formasına müdaxilə etmək düzgün deyilsə, onların müdaxiləsi hicabı vacib etməkdən daha artıqdır. Çünki bu, təhlükəsizliyə daha yaxındır. Ən azı budur ki, bunlara eyni formada yanaşmaq lazımdır. Lakin Qərb belə etmir.

*Tehranın cümə namazı xütbələrindən: 1990.*

## Qərblilərin hicabsızlığı icbari etmələri

Qadının hicabı ona hörmət əlamətidir. Qədimdə çoxlu ölkələrdə (mən çoxlu ölkələri deyirəm, çünki hamısından xəbərim yoxdur), bu Avropada iki yüz il bundan öncəyə qədər əyan və aristokratların qadınları üzlərinə hicab salırdılar ki, onlara göz düşməsin. Bu hörmət əlamətidir. Qədim İranda əyan və əşraf qadınları və rəislərin xanımlarının hamısı hicablı idilər. Aşağı təbəqələrin qadınları isə xeyr, hicabsız da gəlirdilər, maneə yox idi. İslam gəlib bu ayrıseçkiliyi kənara qoydu, dedi ki, qadın hicablı olmalıdır. Yəni bu hörmət bütün qadınlara məxsusdur. İslamın baxışı budur. İndi onlar olublar tələbkar, biz olmuşuq borclu. Tələb edən bizik, gərək onlar desinlər ki, nə üçün qadını bir əşya kimi ehtiras vasitəsi etmişlər.

Dünən mənim üçün bir rəqəm göstərdilər. Bir həftə bundan qabağın statistikasıdır: dünya qadınlarının üçdə biri kişilər tərəfindən döyülür. Bu, ağlamalı haldır. Daha çox sənaye və Qərb ölkələrində baş verən bu hal cinsi kobudluqdan, kişinin qadına qarşı kobud cinsi tələblərindən irəli gəlir. Bu onların qadın barədə hiylələridir. İndi qadına dair mübahisə edirlər ki, siz hicabı icbari etmisiniz. Onların özləri hicabsızlığı icbari edirlər. Tələbə qızı başörtüyünə görə universitetə buraxmırlar. Sonra bizə deyirlər ki, siz nə üçün hicabı icbari etmisiniz. Bu, qadına hörmət istiqamətindədir, o isə qadına hörmətsizlik istiqamətində. Belə nümunələr çoxdur. Bunlar Qərbin ajiotajıdır.

*Böyük Rəhbərin Yəzd vilayətinin universitetlərinin tələbələri ilə görüşdə çıxışından: 2008.*

## Qərbli iddiaçıların müxalif fikrə qarşı dözümsüzlüyü

Qərbli iddiaçılar öz düşüncə əsaslarına qarşı ən mülayim fikrə belə dözmürlər.

Onlar müsəlman qadının daha çox nəyi ilə düşməndirlər? Onun hicabı ilə. Onlar sizin bu çadranızla, düzgün və möhkəm hicabınızla hər şeydən artıq düşməndirlər. Nə üçün? Çünki onların mədəniyyəti bunu qəbul etmir. Avropalılar belədirlər. Onlar deyirlər ki, biz necə düşünürüksə, dünya bizi yamsılamalıdır. Öz cahilliklərini dünyanın mədəniyyətinə hakim etmək istəyirlər. Onlar qadını Avropa tərzində - modabaz, israfçı, xalqın gözü qarşısında bəzənən, cinsi məsələləri oyuncaq edən görmək və bu məsələləri cəmiyyətdə qadınların vasitəsi ilə yaymaq istəyirlər. Harada qərblilərin bu məqsədlərinə qarşı çıxılsa, fəryadları ucalır. Bunlar həm də dözümsüzdürlər. Bu iddialı qərblilər özlərinin qəbul etdikləri əsaslara qarşı ən mülayim fikrə belə dözmürlər.

*Həzrət Zeynəb-Kübranın (ə) doğum günü münasibəti ilə şəfqət bacıları ilə görüşdə çıxışından: 1991.*

## Hicabın ləğvi - qadın və kişi arasında pərdənin götürülməsi

Sözügedən faciəli fəaliyyətlərdən biri Rza şahın dövründə baş verən 7 yanvar hadisəsi idi. İslamın və İranın düşmənlərinin planı və Pəhləvi sarayına bağlı olan ozamankı ziyalıların köməyi ilə iranlı qadını öz iffət və hicabından ayırmağa, müsəlman cəmiyyətlərdə qadının həmişə iffəti sayəsində malik olduğu möhtəşəm imanını məhv etməyə qərar verdilər.

Tağut rejiminin böyük cinayətlərindən biri 7 yanvar hadisəsidir. Hicabı və İslamda qadın və kişinin, eləcə də cəmiyyətin sağlamlığı üçün iki cins arasında təyin olunmuş pərdəni götürmək Qərb cəmiyyətlərində qadının başına gətirilmiş bəlanı iranlı müsəlman qadının da başına gətirmək demək idi. Rza xan ölkə daxilində dəyənəklə bu işi gördü.

*9 Yanvar qiyamının ildönümü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 2008.*

## Qərbin pozğunluğun yayılmasına cavabdeh olması

Mən natiq və təbliğatçılara dəfələrlə demişəm ki, qadın məsələsi barədə öz mövqeyini müdafiə etməli olan biz deyilik. Süquta uğramış Qərb mədəniyyəti özünü müdafiə etməlidir. Heç bir insaflı, düşüncəli insan bizim qadına dair siyasətimizin qadınlar üçün yaxşı olmasını inkar edə bilməz. Biz qadını iffətə, ismətə, hicaba, kişilərlə sərhədsiz və pərdəsiz qarışmamağa, insani hörmətini qorumağa, yad kişi ləzzət alsın deyə onun qarşısında bəzənməməyə dəvət edirik. Məgər bu pisdir?! Bu, müsəlman qadına hörmətdir. Bu, qadının ucalığıdır. Qadını bəzənib küçə və bazardakı kişilərin baxışını cəlb etməyə və onların ehtiraslarını doyurmağa çağıranlar cavab verməlidirlər ki, nə üçün onu bu qədər aşağılayıb xar edirlər. Onlar cavab verməlidirlər. Bizim mədəniyyətimiz Qərbin uca və mütəfəkkir insanlarının bəyəndiyi və uyğun rəftar etdiyi bir mədəniyyətdir. Orada da iffətli, ağır, mətanətli və özlərinə qiymət verən qadınlar özlərini yadların və şorgözlərin ehtiraslarını doyurmaq üçün vasitə etmək istəmirlər. Cılız Qərb mədəniyyətində belə işlər çoxdur.

*Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü münasibətilə ölkə qadınları ilə görüşdə çıxışından: 1992.*

### Qərbin hicabın yayılmasından qorxması

İslam ailəyə əhəmiyyətli yanaşır. Qərbin tribunalarının və informasiya resurslarının müsəlmanlarla bugünkü davası məhz bu məsələdir. Siz görün hicaba qarşı necə həssaslıq göstərirlər. Bu hicab İslam Respublikasında olsa, onu pis sayırlar; Qərb ölkələrinin universitetlərində olsa - orada gənc tələbə qızlar məlumatlı, ayıq şəkildə və öz istəkləri ilə hicaba üz tutmuşlar - həssaslıq göstərirlər; siyasi partiyalarda olsa, həssaslıq göstərirlər; öz ölkələrinin orta, hətta ibtidai məktəblərində də olsa, əllərinin altında olmasına baxmayaraq, həssaslıq göstərirlər. Deməli, əsas məsələ budur. Daim fəryad qoparırlar ki, İslamda, yaxud İslam Respublikasında qadın hüquqları tapdanır. Özləri də buna inanmırlar, İslam Respublikasında qadın haqlarının tapdanmadığını və hətta gücləndiyini bilirlər. Siz görün ali məktəblərdə təhsil alan qız tələbələrin sayı bu gün çoxdur, yoxsa tağut rejimi zamanı çox idi? Görürsünüz ki, bu gün çoxdur. Təhsildə parlayan və ən yüksək qiymət alan qız tələbələr bu gün çoxdur, yoxsa onda çox idi? Görürsünüz ki, bu gün çoxdur. Tibb və müalicə mərkəzlərində, müxtəlif elm mərkəzlərində tədqiqat işləri ilə məşğul olan qadınlar bu gün çoxdur, yoxsa o zaman çox idi? Görürsünüz ki, bu gün çoxdur. Ölkənin siyasi işlərində və beynəlxalq təşkilatlarda fəal iştirak edən, orada öz ölkə və xalqlarının hüquqlarını müdafiə edən qadınlar bu gün çoxdur, yoxsa o zaman çox idi? Görürsünüz ki, bu gün çoxdur. Onda qadınlar müxtəlif yerlərə səfər edirdilər, amma bu, formal xarakter daşıyırdı, həvəsbazlıq üçün və özlərini ona-buna göstərməkən ötrü idi. Lakin bu gün müsəlman qadın beynəlxalq toplantılarda, müxtəlif beynəlxalq konfranslarda iştirak edir, elm mərkəzlərində və universitetlərdə elmi, siyasi, yaxud idari işlərdə fəal çalışır. Bunlar dəyərlidir.

*Böyük Rəhbərin həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə şəfqət bacıları ilə görüşündəki çıxışından: 1994.*

## Qərbin və İslamın qadın və kişi münasibətlərinə baxışlarının fərqi

Sizin indi irəli sürdüyünüz mövzu əsasən qadın və kişi münasibətlərinə və onların davranış tərzlərinə aiddir. Kişi və qadın münasibətlərinə dair qərblilərin baxışı İslam dünyagörüşündən qaynaqlanan baxışla fərqlənir. Onların dünyagörüşü insani məsələlərdən qaynaqlanır. Əlbəttə, dayaz bir şeydir, lakin əsaslı məsələlərlə sonuclanır. İslamın hicab məsələlərinə dair görüşü isə çox yaxşı və aydın görüşdür. Sizin yaxşı bir sözünüz var, deyirsiniz: "Biz hicabla rahatıq və bu bizim fəaliyyət geyimimizdir". Bəli, tamamilə düzgün və gözəl sözdür. Bu, çox düzgün baxışdır. Bunu bacardığınız qədər çox deyin.

*Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü münasibətilə qadınlarla xüsusi görüşündəki söhbətlərdən: 1998.*

## Qadın və kişi arasında qarşıdurma - Qərbin mənfur mirası

Biz bilirik ki, kişi və qadın arasında qarşıdurma Qərb mədəniyyətindən qalmış mənfur bir mirasdır və bizim gənc qızlarımız bunu yaxşı duymuşlar. Bu gün Qərbdə baş verən acı təcrübələr Qərbin qadına baxış növünün və qadınla kişi arasında yaratmaq istədiyi qarşıdurmanın nəticəsidir. Bu təcrübələri gördüyümüzə görə bu məsələyə nifrət edirik. Qərb özünün qadına baxışı səbəbindən insanın qeyri-həqiqi ehtiyaclarını qabartmağa çox çalışır. Misal üçün, insanın həqiqi və əsaslı ehtiyacı olan mənəviyyatı unudub maddi ehtiyaclarına önəm verir və əsas ehtiyaclar kimi göstərir. Əsla belə deyil. Qərb illərlə mənəviyyat və onun təzahürləri ilə vuruşmuşdur. Mənəviyyatın təzahürləri arasında Qərbin heç zaman barışmadığı məsələlərdən biri də hicabdır.

*Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü münasibətilə qadınlarla xüsusi görüşündəki söhbətlərdən: 1998.*

## Qərblilərin hədiyyəsi olan hicabsızlıq

Quldur Rza xanın Qərbdən bizə gətirdiyi ilk hədiyyə geyim formasından və hicabın götürülməsindən ibarət idi; özü də silah gücünə və özünün kazak quldurluğu ilə: paltarlar uzun olmamalıdır, qısa olmalıdır, papaq filan cür olmalıdır və sair. Sonra onu da dəyişdilər: Bundan sonra şlyapa qoyulmalıdır. Əgər kimsə başına Pəhləvi papağından başqa bir şey qoysaydı, yaxud qısa paltar geyinməsəydi, döyülməli idi. Bunları Qərbdən götürdülər. Qadınlara hicab bağlamaq yasaq idi. Çadra çoxdan götürülmüşdü. Əgər başlarını yaylıqla da örtsəydilər və çənələrinin önünü bir qədər tutsaydılar, döyülürdülər. Nə üçün? Ona görə ki, Qərbdə qadınlar başıaçıq gəzirdilər. Bunları Qərbdən gətirdilər. Bu xalqa lazım olanı gətirmədilər; elm gəlmədi, təcrübə gəlmədi, ciddilik və çalışqanlıq gəlmədi, riskə atılmaq gəlmədi. Hər halda, hər bir xalqın yaxşı xüsusiyyətləri də var.

*İslam İnqilabının Böyük Rəhbərinin Rəşt müsəllasında gənclərlə, elm və mədəniyyət xadimləri ilə görüşdə çıxışından: 2001.*

## Əxlaq sərhədlərinin götürülməsi - Amerika islahatının həqiqi siması

Biz gördük ki, indiki məmurlar - istər icraçı orqanın, istərsə də məhkəmə orqanının məmurları qeyd olunan istiqamətlərdə çalışdılar və proqramlar hazırladılar. Çox gözəl! Amma düşmənin islahat adlandırdığı bəzi məsələlər var. Amerikalılar deyirlər ki, sizin hicabınız götürülməlidir, əxlaq və din sərhədləri götürülməlidir, konstitusiyada qeyd olunan Quran hakimiyyəti və qanunların İslamla uyğunluğu ləğv olunmalıdır. Bunlar Amerika islahatlarıdır. Xalqımız öz müstəqilliyini, siyasi inkişafını, şəxsiyyətini və iqtidarını ucuz əldə etməmişdir.

*Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 2000.*

**Qadına ən böyük təhqir ona alət kimi baxmaqdır!**

Tağut quruluşunda qadına həmişə yanlış baxılmışdır. Bu gün Qərbdə də belədir. Qərb ölkələrində bəzi qadınların çoxlu kişilər kimi dəyərli və möhtərəm şəxsiyyətə malik olmaları mümkündür, lakin Qərb mədəniyyətində qadına qarşı oturuşmuş ümumi baxış alət baxışıdır, yanlış və təhqiramiz baxışdır. Qərbin fikrincə, siz azad olmaqdan ötrü çadra və hicabı kənara qoymalı deyilsiniz. Siz deyərsiniz ki, mən hicabla da azadam. Onun məqsədi başqa bir şeydir. Onlar kişinin gözünün nəvazişi və onun qanunsuz istifadəsi üçün qadının cəmiyyətdə xüsusi tərzdə görünməsini istəyirlər. Bu, qadına qarşı ən böyük təhqirdir; indi bir neçə tərifli sözlə bunun üzərini örtsələr və ona başqa adlar qoysalar da.

*Qadınlardan ibarət Quran tədqiqatçıları ilə görüşdə çıxışından: 2009.*

**Qərbin hicab əleyhinə təbliğat hücumu**

Bütün Qərb dünyası, onların mediası və dünyanın böyük sionist və oliqarxlarının əlaltı və muzduru olan qələm sahibləri birləşib İslam Respublikasına qarşı ajiotaj yaratmaq istəyirlər. Bizi səhnədən çıxarmaq üçün hicab məsələsinə təbliğat hücumları təşkil edirlər. Onların təbliğatına rəğmən, müsəlman qadın özünün hicaba, müsəlman heysiyyətinə və İslamın qadın təlimlərinə qüdrətli, qətiyyətli sadiqliyini, özünəinam və etimad ruhiyyəsini qorudu. Bu gün Qərb dünyası tədricən İslam hicabına yönəlir.

Görürsünüz ki, müxtəlif ölkələrdə - istər hicabdan əsər-əlamət olmayan və Qərb təlimlərinə qərq olmuş müsəlman ölkələrində, istərsə də hətta Avropa ölkələrində müsəlman və qeyri-müsəlman qadınlar hicaba üz tuturlar. Əlbəttə, əvvəlcə müsəlmanlar rəğbət göstərdilər. Biz inqilabın qələbəsindən sonra Qərb və Avropa mədəniyyətinin təsiri altında olan ucqar ölkələrin qadınlarının siz İran qadınları kimi hicab bağladıqlarını, onu təcrübə etdiklərini gördük. Bu, sizin inkişafınızdır.

*Tehran, Təbriz, İsfahan, Kerman, Qum, Qəzvin, Yəzd, Kərəc şəhərlərinin, Çahar-Mahal və Bəxtiyari və Mazandaran vilayətlərinin qadınları ilə görüşdə çıxışından: 1990.*

## Müsəlman qadınların inkişaf etməsi ilə Qərbin təhqir olunması

Tağut rejimi dövründə hicabı ələ salan şəxslərin təlxək və pozğun rəftarlarından keçirik. O dövrdə universitetlərin azsaylı hicablı xanım və qızları məsxərə olunur, ələ salınırdı. O rəftar qeyri-insani, əclaf və səhv rəftar idi. İnsanın özünün qəbul etmədiyi bir işə istehza etməsi bu gün Qərb mediasında görünür. O dövrdə bəzi adamlar belə əclaf işlər görürdülər. Bu ümumiyyətlə söhbətin mövzusu deyil. Lakin belə əclaflıq etməyən elm və məntiq adamları, yerində danışan və yerində fikirləşən şəxslər də İslam məsələlərinə etiqad bəsləyən, o cümlədən hicab bağlayan qadının elmi dərəcələr alıb alim ola bilməsinə inanmırdılar. Belə bir şəxsin siyasi və ictimai məsələlərdə bir şəxsiyyət olmasına inanmır, fəal inqilabçı olmasını qeyri-mümkün sayırdılar.

*Ölkənin qadın həkimləri ilə görüşdə çıxışından: 1990.*

## Qərb dünyasında qadın problemləri

Siz bu gün də görürsünüz ki, Qərb dünyasında, xüsusən Amerika Birləşmiş Ştatlarında qadın problemlərindən biri kişilərin öz güclərinə güvənərək qadınların iffətinə təcavüz etməsidir. Mən Amerikanın rəsmi orqanları tərəfindən nəşr olunan statistikaları gördüm. Onlardan biri Amerikanın Ədliyyə nazirliyinə, digəri isə başqa bir rəsmi quruma aid idi. Rəqəmlər doğrudan da dəhşətli idi. Amerikada hər altı saniyədə bir zorlama hadisəsi baş verir. Görün iffət məsələsi nə qədər əhəmiyyətlidir və etinasızlıq etdikdə nəticəsi nə olur. Hər altı saniyədə bir zorlama! Qadının istəyinin əksinə olaraq, quldur, zalım, pozğun və həyasız bir kişi onun həyasına təcavüz edir. İslam bunları nəzərə alır. İslamın bu qədər diqqət mərkəzində olan hicab məsələsi bunlardan ötrüdür. Deməli, iffəti qorumaq, hicaba və iffətə əhəmiyyətli yanaşmaq məsələsi də başqa bir məsələdir.

*Böyük Rəhbərin "Kövsər təvəllüdü" bayramı münasibəti ilə Azadlıq idman kompleksində xanımlarla görüşdə çıxışından: 1997.*

**Modernizm dalğası, yaxud modernizmin çirkab suyu**

Dırnaqarası modernizm dalğasını bu bölgəyə daxil edəndə, əslində modernizmin çirkab sularını buraya göndərdilər. Əlcəzair, Misir, İraq və müstəmləkə altında olan digər region ölkələrinə elmi yaradıcılığı, yeni ixtiraları, düşüncə inkişafını və qabaqcıl universitetləri gətirmədilər. Gətirdikləri birinci şey pozğunluq, hicabsızlıq və yararsız məhsullar idi. Ən çoxu budur ki, öz orta təhsil sistemlərinin sıradan çıxmış ikinci və üçüncü dərəcəli formalarını gətirdilər. Yəni xalqı hər cəhətdən təhqir etdilər.

*İslam İnqilabının Böyük Rəhbərinin İsfahan vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2001.*

## İkinci fəsil: Hicab İslam və inqilabın baxışında

**Hicabı qorumaqda qadının əzəməti**

Fəsad dolu Qərb dünyası qadın cinsini təhqir edən səhv və sapqın qadın şəxsiyyətini zorla dünyanın beyninə soxmaq istədi: Qadın öz şəxsiyyətini göstərməkdən ötrü kişilər üçün gözoxşayan olmalıdır. Hicabı və iffəti kənara tullayıb kişilərin xoşuna gəlməkdən ötrü özünü göstərməsi qadın üçün şəxsiyyətdir?! Bu, qadına hörmətdir, yoxsa təhqir? Hər yerdən xəbərsiz olan bu məst və dəli Qərb sionistlərin təsiri ilə bunu qadına hörmət adı altında bayraq etdi, bəzi adamlar da inandılar. Qadının əzəməti kişilərin gözünü və ehtirasını cəlb etməsində deyil. Bu bir qadın üçün fəxr deyil. Bu, qadına hörmət deyil, onu təhqir etməkdir. Qadının əzəməti Allah-Taalanın ona əmanət verdiyi həya və iffətini qoruya bilməsindədir. O bunu mömin izzəti ilə, vəzifə və məsuliyyət hissi ilə qarışdırıb zərifliyi öz yerində, iti və kəsərli imanı da öz yerində işlətməlidir. Bu zərif kompozisiya yalnız qadınlara məxsusdur. Zərifliyin və kəsərliliyin bu sintezi qadınlara məxsusdur. Bu, Allah-Taalanın qadına verdiyi bir üstünlükdür. Buna görə Quranda yalnız qadın üçün yox, bütün bəşər üçün, qadın və kişi üçün iki qadının imanını misal çəkir: "Allah iman gətirənlərə Fironun xanımını misal çəkdi. Həmçinin namusunu möhkəm qoruyub saxlamış İmran qızı Məryəmi də misal çəkdi". Biri Fironun arvadı, biri də həzrət Məryəmdir (ə). Bunlar İslamın məntiqini göstərən işarə və əlamətlərdir.

*Ölkənin nümunəvi şəfqət bacıları ilə görüşdə çıxışından: 2010.*

## İslam və qadınların bütün sahələrdə inkişafı

Dünyada mövcud olan müxtəlif təfəkkürlər arasında İslamın görüşünə nəzər saldıqda aydın şəkildə başa düşürəm ki, bəşəriyyət yalnız İslamın baxışlarını azaldıb-artırmadan, ifrat və təfritə varmadan dərk etdikdə qadın məsələsinə, qadın-kişi münasibətlərinə dair sağlam və ideal yolu tapacaq. Bu, bizim qadın məsələlərinə dair iddiamızdır. Biz bu gün maddi sivilizasiyalarda qadına qarşı mövcud olan fikirləri əsla qəbul etmirik, onları qadının və cəmiyyətin xeyrinə saymırıq.

İslam istəyir ki, qadınların elmi, ictimai, siyasi və düşüncə inkişafı, ilk növbədə fəzilət və mənəviyyatı uca səviyyəyə çatsın, cəmiyyətin və bəşər ailəsinin bir üzvü kimi ona maksimum faydalı və səmərəli olsunlar. İslamın bütün təlimləri, o cümlədən hicab məsələsi bundan ötrüdür. Hicab qadını təcrid etmək deyil. Əgər kimsə belə düşünsə, çox yanlış düşünüb. Hicab cəmiyyətdə qadın və kişinin bir-biri ilə qeyd-şərtsiz qarışmasının qarşısını almaq üçündür. Çünki belə bir vəziyyət həm cəmiyyət üçün zərərlidir, həm də kişi və qadın üçün. Bu, xüsusən qadının ziyanınadır.

Hicab siyasi, ictimai və elmi fəaliyyətlərə əsla maneə və əngəl törətmir. Bunun canlı sübutu sizlərsiniz. Bəlkə də bəziləri təəccüb edirdilər və hələ də təəccüb edirlər ki, hər bir fəndə özünü İslam təlimləri, o cümlədən hicab məsələsi ilə uyğunlaşdıran yüksək elmi səviyyəli bir xanım olsun. Bu bəziləri üçün inanılmaz idi, təsəvvür edə bilmirdilər.

*Ölkənin qadın həkimləri ilə görüşdə çıxışından: 1990.*

**Tibb sahəsi - qadınların peşə seçimində prioritet məsələ**

Mən burada deyim ki, tibb fənni xanımlar üçün prioritet fəndir. Biz ictimai münasibətlərdə qadın və kişi arasında bir məsafənin olmasını vacib sayırıqsa, qadın və kişinin qeyd-şərtsiz qarışmamasını istəyiriksə, sözün həqiqi və tam mənasında hicabı lazım biliriksə, həkimlik məsələsinə laqeyd yanaşa bilmərik. Yəni kişi həkimlər qədər qadın həkimlər də lazımdır. Qoy qadınlar öz tibbi işlərində qadın həkimə müraciət etsinlər. Bizim bu fasiləni götürməməyimizə heç bir lüzum yoxdur. Gərək elə bir iş görək ki, qadınlar heç bir problemlə üzləşmədən həkimə müraciət edə bilsinlər və o həkim qadın olsun.

*Ölkənin qadın həkimləri ilə görüşdə çıxışından: 1990.*

**Radio və televiziyada qadın simasının bərpası**

Radio və televiziyanın keçmiş proqramlarında qadın sahəsində iki əsaslı eyib mövcud idi: biri bu idi ki, hicabın dəyəri itmişdi, bundan daha böyük olan ikincisi bu idi ki, qadına alçaldıcı rollar verilirdi. Birinci eyibdə hicabdan ibarət olan bir dəyər sual altına düşür və tapdanır. İkinci eyibdə isə bəzən qadın üçün nəzərdə tutulan bütün bəşəri dəyərlər sual altına düşür. Romantik bir dastanda qadın hər halda, sionist və imperialistlərin bəyəndiyi rola sahibdir, amma çox zaman yaxşı bir ana, yaxşı bir həyat yoldaşı və işgüzar bir insan surətində təqdim olunmur.

Bu iki eyib aradan qaldırılmalıdır. Biz gərək qadını həm hicablı göstərək, həm də İslamın və inqilabın onun üçün nəzərdə tutduğu dəyərlərlə - yəni nəcibliklə və qadın iffəti ilə. Ən mühüm məsələ qadının iffət gövhəri, ailənin əsas elementi və əsas sütunu olması, cəmiyyətin əsas üzvü və dayağı olması, cəmiyyətin və kişilərin inkişafında, bizim keçmiş hadisələrimizdə, o cümlədən inqilabda, müharibədə və digər hadisələrdə təsiridir.

*Radio və televiziyanın Siyasi şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.*

## Universitet müəllimlərinin inqilab və İslam xəttində olmalarının zəruriliyi

Universitetlərdə müəllimin böyük rolu var. Müəllim tələbədən fərqli dinə və məsləkə malik olsa da, dərs deyə bilər, amma bu şərtlə ki, universitetdə inqilab və İslam ab-havasını dəyişdirməyə qalxmasın. Sözünün əvvəlində "Bismillahir-Rəhmanir-Rəhim" deyən tələbəyə qeyzlənən, İslam hicabından istifadə edən tələbə qıza hörmətsizlik edən müəllimə universitetdə yer yoxdur. O müəllimin bu universitetə verəcəyi elm ölkənin xidmətində duran və bu fədakar xalq üçün ideal dəyərlərin istiqamətində işlənən elm deyil.

*"Şahid" məktəblərinin nümunəvi şagirdləri, müəllim və direktorları, Pedaqoji universitetin müəllim və tələbələri ilə görüşdə çıxışından: 1991.*

**İmamın hicab məsələsində güzəştə getməməsi**

İmamın İrana qayıtdığı zaman mübarizə hərəkatının ən azı bəzi səviyyələrində dırnaqarası ziyalı ideyaları hakim idi. Bu ziyalıpərəstliyin qızışmasında hətta ruhanilərin və bizim kimilərin də rolu olmuşdu. Amma imam bunların hamısını götürüb kənara qoydu. Mən imamın hava limanındakı birinci çıxışı zamanı keçirdiyim hissləri xatırlayıram. Həqiqətən təəccübləndim ki, imam bizdən fərqli olaraq heç nədən çəkinmir. O həmin çıxışda əvvəlcə ruhanilərin adını çəkdi. Əgər onun yerinə biz olsaydıq, bunu etməzdik. Əgər o zaman biz çıxış etməli olsaydıq, ruhanilərdən başlamazdıq, amma imam bunu əsla nəzərə almadı.

Qələbənin ilk aylarında imam hicab və hicabsızlıq məsələsini qətiyyətlə ortaya qoydu. O zaman biz İnqilab şurasının üzvü kimi Dövlət şurasının bəzi iclaslarında iştirak edirdik. Dövlət şurasının dindar qüvvələrindən olan bəzi şəxslər deyirdilər ki, imam nə üçün belə etdi. İmam heç nədən çəkinmirdi. Buna görə, nəyisə mülahizə edib çəkinməməliyik. Bu, universitetdəki bəlli boşluğu dolduracaq.

*Hövzə jurnalının təsisçisi, baş redaktoru və redaksiya heyətinin üzvləri ilə görüşdə çıxışından: 1992.*

## İnqilabın qadınların inkişafında bayraqdarlığı

Satqın və mənfur şah rejimində qadın həqiqətən və bütün cəhətlərdən məzlum idi. Əgər qadın elmlə məşğul olmaq istəsəydi, gərək dindən, təqvadan və iffətdən vaz keçəydi. Məgər müsəlman bir qadın universitetlərdə, təhsil ocaqlarında, elm və mədəniyyət mərkəzlərində asanlıqla öz hicabını, mətanətini və vüqarını qoruya bilərdi?! Məgər bu mümkün idi?! Məgər müsəlman bir qadın Tehranın və ya başqa bəzi şəhərlərin küçələrində İslam vüqarı ilə, yaxud hətta yarımçıq hicabla yol yeriyə, Qərbin sovqatı olan fəsad və pozğunluğa alışan avaraların söz və hərəkətlərindən qoruna bilərdi?! Elə bir vəziyyət yaratmışdılar ki, bu məmələkətdə əksər qadınlara elm öyrənmək imkansız olmuşdu. Bəzi müstəsna hallarla işim yoxdur. Əksəriyyət etibarilə qadınların elmlə məşğul olması mümkün deyildi; gərək hicabı açaydılar, təqva və İslam vüqarından imtina edəydilər.

Siyasətdə və ictimai fəaliyyətlərdə də belə idi. Əgər şah dövrünün İranında bir qadın ictimai-siyasi bir vəzifəyə yüksəlmək istəsəydi, hicabını, iffətini, müsəlman qadının vüqar və mətanətini kənara qoymalı idi. Əlbəttə, bu, qadının özündən və istedadından asılı idi. Əgər çox zəif olsaydı, sona qədər sürüşəcəkdi. Əgər bir qədər özünü qoruyan olsaydı, müəyyən həddə özünü saxlayacaqdı, amma daim ictimai mühit tərəfindən günbəgün artan təzyiqlərlə üz-üzə qalacaqdı. Bizim cəmiyyətimiz belə idi. İslam, inqilab və imam gəlib bu ölkədə qadını siyasi fəaliyyətlərin mərkəzinə qoşdu, inqilab bayrağını qadınlara tapşırdı. Və qadın həmin halda öz hicabını, vüqarını, İslam mətanətini, iffətini, dinini və təqvasını da qoruya bildi. İranlı və müsəlman qadının boynunda heç kimin bundan böyük haqqı yoxdur.

*Tehran, Təbriz, İsfahan, Kerman, Qum, Qəzvin, Yəzd, Kərəc şəhərlərinin, Çahar-Mahal və Bəxtiyari və Mazandaran vilayətlərinin qadınları ilə görüşdə çıxışından: 1990.*

**Qadınlar - İslam dəyərlərinin keşikçiləri**

Bu gün siz qadınlar Qərb dünyasının cahil ənənələri qarşısında İslam dəyərləri səngərinin keşikçilərisiniz. İslam mədəniyyətinin bu möhkəm qalasını qoruyan sizlərsiniz. Qadın elmdə, mədəniyyətdə, siyasətdə, hər bir yerdə İslama uyğun yetişməli, ictimai, iqtisadi, siyasi və digər sahələrdə öncül olmalıdır, lakin ehtiraslı və cinsi məsələlərdə onun-bunun oyuncağına çevrilməməlidir. Bizim sözümüz budur.

İslam məktəbində qadın və kişi arasında bir qoruyucu və hicab vardır. Bunun mənası o deyil ki, qadınların kişilərdən fərqli bir aləmləri var. Xeyr! Onlar cəmiyyətdə birgə yaşayırlar, iş yerində, hər yerdə birgədirlər. İctimai problemləri qadın və kişilər birgə həll edirlər. Müharibəni qadın və kişilər birgə edirlər və etdilər. Ailəni qadın və kişi birgə idarə edir və övlad böyüdürlər. Lakin bütün bunlarla yanaşı, ev və ailədən bayırdakı pərdə və hicab mütləq qorunur. İslam örnəyində əsas məsələ budur. Əgər bu məsələyə riayət olunmasa, bu gün Qərbin düçar olduğu pozğunluq yaranacaq, qadın müsəlman İrandakı xüsusiyyətindən, yəni dəyərlərə sarı hərəkətdə öncüllükdən məhrum olacaq. Qərblilər hər bir yerdə bir yolla var gücləri ilə buna çalışırlar.

*Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə şəfqət bacıları ilə görüşdə çıxışından: 1991.*

**İranın müsəlman qadınları ilə fəxr etmək**

Mühüm olan budur ki, siz müsəlman qadınlar, xüsusən də gənclər, tələbə qızlar, elmi, ictimai və siyasi fəaliyyətlərlə məşğul olan xanımlar İslamın bu üsulunu ciddi və kamil şəkildə davam etdirəsiniz. İslamçı və inqilabçı müsəlman qadın yetişdirmək İslam Respublikasının fəxridir. Biz öz müsəlman qadınlarımızla fəxr edirik. Bu yürüşlərdə kameralar övladlarını qucaqlarında tutaraq çətin şəraitdə kamil hicabla yürüşə gələn, yaxud siyasi mövqe bildirmək üçün meydana çıxan, yaxud cümə namazında iştirak edən və yaxud ibadət-siyasət əməli kimi seçki məntəqələrinə yollanan qadınları göstərəndə biz fəxr edirik. Bizim qadınlarımız universitetlərdə elm öyrənərkən yüksək dərəcələr əldə etdikdə, yaxud ümumrespublika konkurslarında müxtəlif fənlərdə birinci və ikinci yerləri tutduqda İslam Respublikası başıuca olur və fəxr edir. Bu, nurlu İslam hökmləri üçün fəxrdir ki, bu dövrdə belə quruculuqla məşğul olur və hər tərəfdən yayındırıcı, səhv təbliğatların aşıb-daşdığı bir dünyada müsəlman qadın bu şücaətlə və fikir azadlığı ilə özünü göstərə bilir. Bunlar İslamın faydalarındandır.

*Böyük Rəhbərinin həzrət Zəhranın (ə) doğum günü münasibətilə ölkə qadınları ilə görüşdə çıxışından: 1992.*

**Universitetlərdə İslam mədəniyyətinin təbliği**

Universitetlər çox mühüm mərkəzlərdir. Tələbə və müəllim xanımlar universitetlərdə İslam ruhiyyəsini və mədəniyyətini yaymağa çalışmalıdırlar. Kimlərinsə ölkə universitetlərində İslam hicabına, müsəlman qadın və qızlara hörmətsizlik etmələrinə, öz çürük düşüncələrini yaymalarına imkan verməyin. Universitet İslam mərkəzi, İslamı seçmiş və örnəyi Fatimə (ə) olan insanın inkişaf yeri olmalıdır. Bu, ölkənin gələcəyi üçün olduqca əhəmiyyətlidir.

*Böyük Rəhbərinin həzrət Zəhranın (ə) doğum günü münasibətilə ölkə qadınları ilə görüşdə çıxışından: 1992.*

**Çadra iranlı geyimidir!**

Burada qadın və kişi arasında sərhəd vardır. Sərhədin mənası bu deyil ki, qadın və kişilər bir yerdə təhsil almasınlar, bir yerdə ibadət etməsinlər, bir yerdə işləməsinlər, bir yerdə alış-veriş etməsinlər. Belə hallar çoxdur. Əslində mənası odur ki, öz əxlaq və rəftarlarında hədd-hüdud tanısınlar və bu çox yaxşı haldır. Qadın belə yerdə öz hicabını qoruya bilər. Bizim xalqımız çadranı seçmişdir. Əlbəttə, biz heç zaman deməmişik ki, mütləq çadra olsun və başqa bir şey olmasın. Demişik ki, çadra digər hicablardan yaxşıdır. Amma bizim qadınlarımız öz hicablarını qorumaq istəyirlər, çadranı da sevirlər. Çadra bizim milli geyimimizdir. Çadra İslam hicabı olmazdan öncə İran hicabı olmuşdur. Bu bizim xalqımıza məxsusdur və bizim milli geyimimizdir.

*Böyük Rəhbərin həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə şəfqət bacıları ilə görüşündəki çıxışından: 1994.*

## İslamda qadın-kişi arasında sərhəd

İslama görə hər yerdə - küçədə, idarədə, bazarda qadın və kişi arasında bir sərhəd olmalıdır. Müsəlman qadın və kişi arasında hicab və sərhəd müəyyən olunmuşdur. Qadın və kişilərin qarışması kişilərin kişilərlə və qadınların qadınlarla qarışması kimi deyil. Buna riayət etmək lazımdır; həm kişi riyaət etməlidir, həm də qadın. Əgər İslamın kişi və qadınların münasibətlərinə və qarışmasına dair həssaslığı nəzərə alınsa, kişilərin gördüyü bütün ictimai işləri fiziki qüvvəsi, həvəsi və fürsəti olan qadınlar da görə bilərlər.

*Xuzistan qadınlarının toplantısında çıxışdan: 1997.*

**Hicab təhlükəsizlik vasitələrindəndir!**

Qeyd etdiyim qarışmanın baş verməməsi və əxlaq hədlərinin qorunması üçün İslam qadına hicabı vacib etmişdir. Bu hicabın özü təhlükəsizlik vasitələrindən biridir. Hicab təhlükəsizlik vasitələrindən biridir. Müsəlman qadın hicablı olduqda həm onun özü təhlükəsiz olur, həm də müsəlman kişilər. Hicabın qadınlardan alındığı və qadının çılpaqlığa yaxınlaşdırıldığı yerdə ilk növbədə qadının özünün, sonra isə kişilərin və gənclərin təhlükəsizliyi pozulmuş olur. İslam mühitin sağlam və təhlükəsiz olması, qadının cəmiyyətdə öz işini görməsi, kişinin də öz vəzifələrini yerinə yetirməsi üçün hicabı müəyyən etmişdir. İslamın dəyərli hökmlərindən olan hicabın faydalarından biri qeyd etdiyim bu məsələdir.

*Xuzistan qadınlarının toplantısında çıxışdan: 1997.*

## Hicab - qadınları müdafiənin əsas şərti

Qadını müdafiə adı altında görülən hər bir işdə əsas şərt qadının iffətini qorumaq olmalıdır. Qeyd etdiyim kimi, Qərbdə buna diqqət yetirilmədi. Yəni qadın iffəti məsələsi diqqətdən kənarda qaldı, ona etinasızlıq göstərildi və bu səbəbdən cinsi özbaşınalıqlar qarşıya çıxdı. Qadın şəxsiyyətinin ən mühüm elementi olan iffətin diqqətdən kənarda qalmasına imkan verilməməlidir. Qadın iffəti digərlərinin, hətta şəhvətpərəst və pozğun kişilərin gözündə də qadının şəxsiyyətini, ucalığını və möhtərəmliyini göstərir. Qadının iffəti onun hörmətinə və şəxsiyyətinə bais olur. Hicab məsələsi, məhrəm və naməhrəmlik, baxmaq və baxmamaq məsələləri iffətin sağlam qalmasından ötrüdür. İslam dini qadının iffətinə əhəmiyyətli yanaşır. Əlbəttə, kişinin iffəti də əhəmiyyətlidir. İffət təkcə qadınlara məxsus deyil, kişilər də iffətli olmalıdırlar. Lakin cəmiyyətdə kişi öz fiziki gücünə arxalanıb qadına zülm edə, onu öz iradəsinə məcbur edə bildiyindən, qadın iffəti üzərində daha artıq təkid göstərilmişdir.

*Böyük Rəhbərin "Kövsər təvəllüdü" bayramı münasibəti ilə Azadlıq idman kompleksində xanımlarla görüşdə çıxışından: 1997.*

**Qadınların ictimai fəaliyyətinin dindarlıqla ziddiyyət təşkil etməməsi**

Erkən İslam çağında qadın döyüş meydanında yaralıların yarasını bağlamaqdan əlavə (bu iş daha çox qadınların öhdəsinə düşürdü), hətta bəzən niqabla döyüşə girib o dövrün ağır vuruşmalarında qılınc çalırdılar. Eyni zamanda evin daxilində öz övladlarını ağuşlarına alır, İslam tərbiyəsi verir və öz hicablarını qoruyurdular da. Çünki bunların bir-biri ilə ziddiyyəti yoxdur. Əgər insan yaxşı diqqət yetirsə, ziddiyyətin olmadığını görər. Bəziləri ifrat edirlər, bəziləri təfrit; bəziləri deyirlər ki, ictimai fəaliyyət evlə, ərlə və övladla maraqlanmağa imkan vermədiyinə görə bunu etməməliyik, bəziləri də deyirlər ki, ev, ər və övlad ictimai fəaliyyətə imkan vermədiyinə görə onları buraxmalıyıq. Bunların hər ikisi səhvdir və birinə görə o birini əldən vermək olmaz.

*Xuzistan qadınlarının toplantısında çıxışdan: 1997.*

**Qərbin hicab məsələsinə dair ajiotajı**

Yaşadığımız dövrdə Amerikanın və Avropanın bütün dünyaya qarşı yeni müstəmləkəsinə zəmin yaradan təfəkkürlər vardır. Məqsəd Qərb modelli demokratik cəmiyyətlər yaratmaqdır və siz dünyanın bu məsələ üzərində həssas olduğunu bilirsiniz. Əgər hicab təbliğatı zamanı bu cəmiyyətlərin geyim formasına azca toxunulsa, bütün dünyanı səs-küy bürüyər. Lakin hicabın açılması istiqamətində kiminsə geyim formasına toxunanda onun yüzdə biri qədər səs çıxmır. Bu reallıqdır. Bu gün hegemon dünyanın səssizcə bütün dünyaya hakim etməyə çalışdığı yeni sivilizasiya və quruluşun əlamətlərindən biri budur.

*Fəqih rəhbərin ölkə universitetlərindəki nümayəndəliklərinin Mərkəzi şurasının üzvləri və nümayəndəliklərin başçıları ilə görüşdə çıxışından: 1990.*

**Qadınların hicaba dair düşüncələrinin inkişafına çalışmaq**

Qadınların mənəvi və əxlaqi baxımdan inkişafı fikri qadınların arasında geniş yayılmalıdır. Qadınların özləri bu məsələ barədə daha çox düşünməlidirlər. Onların özləri elmə, biliyə, maariflənməyə və həyatın əsaslı məsələlərinə üz tutmalıdırlar. Tağut hakimiyyəti dövründə Qərbin səhv tərbiyəsi bu ölkədə qadınların bərbəzəyə, dəbdəbəçiliyə, əbəs zinətlərə və bəzənib özlərini göstərməyə meyl salmalarına bais oldu və bu, kişi dominantlığının əlamətlərindəndir. Qərblilərin kişi dominantlığının əlamətlərindən biri budur ki, qadını kişi üçün istəyirlər. Buna görə deyirlər ki, qadın kişinin ləzzət alması üçün bəzənməlidir. Bu, kişinin dominantlığıdır. Bu, qadın azadlığı deyil. Bu, əslində kişi azadlığıdır. Onlar kişinin azad olmasını istəyirlər. Hətta kişinin gözünün ləzzət alması üçün qadını onun qarşısında hicabsızlığa və bəzənməyə həvəsləndirirlər. Əlbəttə, qədim dövrlərdə dinsiz cəmiyyətlərin çoxlu kişilərində də bu növ eqoizm mövcud olub və indi də var. Qərblilər də bunun ən bariz nümunələri olmuşlar. Deməli, qadının mütaliəyə, elmə və tədqiqata sarı hərəkət etməsi və digər bu kimi şüarlar yalnız qadınların arasında ciddi sayılmalıdır.

*"Kövsər təvəllüdü" bayramı münasibəti ilə Azadlıq idman kompleksində xanımlarla görüşdə çıxışından: 1997.*

**Məntiq - hicabı təbliğ etməyin ən yaxşı yolu**

Hicabı təbliğ etməyin ən yaxşı yolu məntiqdir. Əlbəttə, dövlətin qanunu pozanlara qarşı tədbir görməsi üçün bir qanun ola bilər və şübhəsiz ki, tədbir görər. Eyni zamanda, köklü şəkildə lazım olan və hamısından çox əhəmiyyət kəsb edən budur ki, siz bu gənc qızı, yaxud gənc xanımı hicabın əhəmiyyəti ilə tanış edəsiniz. Yəni ona başa salın ki, hicab həm şəriət baxımından, həm də məntiqi baxımdan yaxşıdır. Hicaba riayət etməyin düzgün səbəbini onun zehnində möhkəmləndirin. Ümidvarıq vəziyyət inşallah günbəgün yaxşılaşacaq. Əlbəttə, buna mənfi təsir göstərən amillərdən biri də Qərb adamının həyat tərzini nümayiş etdirən bəzi filmlərdir. Bunlar xalqın hicab məsələsinə dair inancına mənfi təsir göstərir. Odur ki, bu filmlərin yayımının dayandırılmasına dair tövsiyələr də verilməlidir.

*Tələbə nəşriyyələrinin baş redaktorları və məsul şəxsləri ilə sual-cavab toplantısındakı söhbətlərdən: 1999.*

**Hicab - qadınların ictimai fəaliyyət geyimi**

Bu gün özünü insan hüquqlarının müdafiəçisi sayan sivil dünyada müsəlman tələbə qızların həmişə problemlə üzləşdiyini və təhsildən məhrum olduğunu görürük. Həmçinin işləyən müsəlman qadınlar hicablarına görə işlərindən məhrum olurlar. Onlar hicaba qarşı belə kəskin mübarizə aparır və həmişə deyirlər ki, hicab maneə yaradır, çətinlik törədir, müxtəlif ictimai işlərdə hicabla çalışmaq mümkün deyil. Halbuki biz hər halda tələbə qızlarıq, müxtəlif yerlərdə - dərsdə, işdə çalışırıq və bunun bizim üçün problem yaratdığını görmürük. Biz ümumiyyətlə hicabı qadınların ictimai fəaliyyət geyimi bilirik. Əgər bu olmasa, cəmiyyətdə bizə problem yaranar, lakin hicabın heç zaman bizim üçün çətinlik və problem yaratdığını hiss etməmişik. Biz hicabla özümüzü olduqca çox rahat hiss edirik.

*Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü münasibətilə qadınlarla xüsusi görüşündəki söhbətlərdən: 1998.*

### Cinsi sərhədlərin götürülməsinin qadınların inkişafına mane olması

Tağut rejimi dövründə bizim bu qədər alim qadınımız yox idi. Bu, mənim sözümdür və bunu təkidlə deyirəm. Bu gün qadın tədqiqatçıların, müəllimələrin, müxtəlif sahələrdə çalışan qadın alimlərin, düşünən, nəzəriyyə yürüdən və əsərlər yazan qadın mütəfəkkir və yazıçıların, qadın ədib və şairələrin, qadın sənətkarların - yazıçıların, şairələrin, rəssamların mütləq və nisbi sayı tağut dövründən dəfələrlə artıqdır. Qadını müdafiə adı altında hicabı, iffəti, qadın və kişi arasındakı pərdəni tamamilə götürən və bu sərhədsizliyi günbəgün artıran tağut rejimində vəziyyət hətta bəzi sahələrdə Avropa ölkələrindən də pis olmuşdu. Bu gün İslam Respublikası quruluşunda hicab, çadra və başörtüyü bağlayan qadınlardan ibarət düşüncə, elm, əməl elitasının, siyasi fəalların, mədəniyyət və incəsənət xadimlərinin əzəmətli toplumu vardır. O zaman bu miqdarın bir hissəsi də yox idi; çox məhdud idilər. Bu, təlqin etmək istədiklərinin tam ziddinə olan bir nəzəriyyəni gücləndirir. O da budur ki, cinsi sərhədlərin götürülməsi nəinki qadını, onun mənəviyyatını və istedadlarını inkişaf etdirmir, əslində nəticələri müxtəlif bərbəzəklərdən və zahiri işlərdən ibarət olan, müxtəlif problemlər yaradan işlərlə məşğul edir. Bunun özü qadınların kamiliyyə və yüksəlişə sarı hərəkətinə maneədir.

*İslam İnqilabının Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın doğum gününün ildönümü ərəfəsində alim qadınlarla görüşdə çıxışından: 2007.*

**İmamın hərəkatı və cəmiyyətdə hicabın yayılması**

İnqilaba 1-2 il qalmış mübarizə hərəkatının dalğası özünün əqidə və düşüncələri ilə birgə müxtəlif zümrələrin içinə daxil oldu. İslama əqidəsi olmayanların çoxu hərəkatın sayəsində İslama inandılar. Hicaba heç bir etiqadı olmayan çoxlu qızlar vardı. Amma hərəkat dövründə heç kim onlara bir kəlmə söz demədən, özləri hicab bağlayırdılar. Yəni imamın hərəkatı, İslam hərəkatı genişləndiyindən, zirvəyə çatdığından, Kərbəla rəngi aldığından, nə qədər çox tələfat verirdisə, nə qədər çox şəhid və fədai verirdisə, bir o qədər də tərəfdar toplayır və dairəsini genişləndirirdi.

*Tehran universitetinin tələbələri ilə görüşdə çıxışından: 1998.*

**Hicabı təbliğ edin!**

Siz təbliğat aparmalı, yəni dediyiniz şəxslərin hicaba inamı sarsıtmaq üçün işlətdikləri fəndi və metodu işə salmalısınız. Hicab barədə tədqiqat aparın, fikirləşin, onun barəsində dini müzakirələr aparın, yaxud uyğun mövzuda görülən işlərdən istifadə edin. İctimai baxımdan da hicabın necəliyi haqda fikirləşin, öz baxışınızı yayın, fikrinizcə düzgün olanı deyin. Onların gəlib xalqın ürəyində hicaba meyli aradan qaldırmaq istəmələrindən qorxmayın. Hicab məhv olmayacaq. Əlbəttə, əgər başının üstündə Rza xanın gücü kimi bir güc olsa, yaxud eşitdiyim qədərincə Tunis kimi bəzi ölkələrdə heç kimin küçədə hicablı gəzmək hüququ olmasa - ümumiyyətlə burada insan hüquqları da tapdanır, onlar insanları hicabsızlığa məcbur edirlər, bu məsələlərlə məşğul olanlar isə tamaşa edir və bir söz demirlər - onda Rza xan dövründəki hicabsızlıq məsələsi qarşıya çıxacaq. Lakin bu məcburilik götürülən kimi xalq yenə hicaba qayıdacaq.

*Tələbə nəşriyyələrinin baş redaktorları və məsul şəxsləri ilə sual-cavab toplantısındakı söhbətlərdən: 1999.*

**Çadraya bürünmədən hicaba riayət etmək şəriətin ziddinə deyil!**

Sizin toxunduğunuz yaxşı hicab, yəni bizim özümüzün iranlı çadramız həqiqətən yaxşıdır. Buna əsla şübhə etmək olmaz. Əlbəttə, mən heç zaman deməmişəm ki, haradasa çadranı məcbur etsinlər. Amma həmişə demişəm ki, çadra iranlı hicabıdır, iranlı qadın bunu seçib, bu, yaxşı hicabdır və bununla hicabın bütün qaydalarına riayət etmək mümkündür. İndi bəzilərinin iranlı və özümüzünkü olan hər şeydən acıqları gəlir, özümüzünkü olmayanları istəyirlər. Hər halda, çadrasız da hicaba riayət etsələr, şəriətə zidd bir iş görmüş sayılmırlar, lakin yaxşı bir şeyi əldən vermiş olurlar.

*Tələbə nəşriyyələrinin baş redaktorları və məsul şəxsləri ilə sual-cavab toplantısındakı söhbətlərdən: 1999.*

## İranlı qadınların hicabının digər ölkələrin qadınlarına örnək olması

Siz bilin ki, bu gün dünyanın bir çox yerlərində müsəlman qadınlar sizə baxır və sizdən öyrənirlər. Bəzi Qərb ölkələrində, qeyri-dini hökumətləri olan bəzi müsəlman ölkələrində İslam hicabı bu şəkildə din düşmənlərinin hücumuna məruz qalır. Bu onların hicaba rəğbətini göstərir. Bizim hicaba diqqət göstərilməyən qonşu ölkələrimizdə, mənim özümün yaxından bəzi nümunələrini gördüyüm İslam ölkələrində heç zaman hicabın adını çəkmirlər. İnqilabdan sonrakı iyirmiillik müddətdə qadınlar, xüsusən də ziyalı qadınlar və tələbə qızlar hicaba yönəlmiş, maraq göstərmiş və hicablı olmuşlar. Bunlardan əlavə Qərb ölkələrində də bnun nümunələri müşahidə olunur. Siz örnək və nümunəsiniz.

*Böyük Rəhbərin qadınlarla görüşdə çıxışından: 2000.*

**İranlı qadının inkişafı düşmənin təbliğatını zərərsizləşdirir!**

Siz görün hicabı məhv etmək üçün bu gün dünyada nə qədər pul xərcləyir və zəhmət çəkirlər. Özlərini azadlığın beşiyi hesab edən ölkələr hicabla mübarizədə nələr etmirlər. Lakin hicabla mübarizə aparan bütün təşkilatlar bir tərəfə, İslam hicabı ilə, çadra ilə, gözəl idman forması ilə kameraların önünə çıxan və bu dəyərə sadiq qaldığını göstərən bu gənc qızımız və mömin idmançı bacımız bir tərəfə. Bu səhnə bütün dünyada nümayiş etdirildi və o bu işi ilə sözügedən təbliğatların hamısını zərərsizləşdirdi.

*İslam İnqilabının Böyük Rəhbərinin olimpiya və parolimpiya yarışlarında iştirak edən idmançılarla görüşdə çıxışından: 2004.*

## Hicab məsələsinə dair cəmiyyətin vəziyyəti

Mənim tövsiyəm bəllidir. Hicaba riayət edin. Bu lazım və vacibdir. Bu məktubu yazan qardaşa, yaxud bacıya demək istəyirəm ki, sizin dediyiniz kimi deyil. Siz deyirsiniz ki, bizim qadınlar hicabsız olmuşlar. Ola bilsin bəziləri mənə desinlər ki, siz yalnız hicablı bacıları görmüsünüz. Xeyr! Mən bəzən məhz kişi və qadınların görkəminə baxmaq üçün küçəyə çıxıram; əlbəttə, haram baxışla yox, halal baxışla. Mənə bəzilərinin təsvir etdikləri kimi görünmür. Düzdür, nöqsanlar da var. Mən də bütün təfərrüatlarından xəbərdar deyiləm. Harada belə bir vəziyyət olsa, çıxış yolu pis işlərdən çəkindirməkdir.

*İslam İnqilabının Böyük Rəhbərinin Şəhid Behişti Universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2003.*

**Qadının roluna diqqətsizliyin ziyanları**

Bizim qadınlarımız məzlumdurlar. Mənim qadın haqda sözüm çoxdur. Qadın məsələsi həqiqətən mühüm məsələdir. Bəziləri buna diqqət yetirmirlər, dəb halına düşmüş formal bir məsələ kimi yanaşırlar. Qadın barədə feminist görüşlər və Qərbə məxsus baxışlar öz yerində, amma biz qadının ailə və cəmiyyətdə rolu, qadının dəyəri, əhəmiyyəti və bu qəbildən olan məsələlər üzərində həqiqətən az işləmişik və bunun zərərlərini də görürük.

*Radio və televiziyanın məsul işçiləri ilə görüşdə çıxışından: 2003.*

**Nümunəvi müsəlman qadının xüsusiyyətləri**

İslam kimliyi budur ki, qadın özünün qadın kimliyini və xüsusiyyətlərini - təbiət və fitrət bunu təsdiqləyir və hər bir cins üçün öz xüsusiyyətləri dəyərdir - yəni incə hissləri, güclü emosiyaları, zərifliyi, qadın paklığını və təmizliyini qorumaqla yanaşı, eyni zamanda həm mənəvi dəyərlərdə – o cümlədən elmdə, ibadətdə, Allaha yaxınlaşmaqda, ilahi maarifdə və irfan vadisində inkişaf etsin, həm ictimai və siyasi məsələlərdə, müqavimətdə, dözümdə, siyasi iradədə, siyasi dərkdə, öz ölkəsini tanımaqda, öz gələcəyini tanımaqda, milli və böyük məqsədlərini, İslam ölkələrinə və İslam xalqlarına aid İslam məqsədlərini tanımaqda, düşmənin təxribatlarını tanımaqda, düşməni tanımaqda, düşmənin üsullarını tanımaqda günbəgün inkişaf etsin, həm də ailə daxilində ədalət, insaf, aramlıq, dinclik yaratmağa müvəffəq olsun. Əgər qanun lazımdırsa, əgər bununla sonuclanan məsələlərə düzəliş lazımdırsa, savadlı, məlumatlı qadınlar bütün bu işlərdə öncül olmalı, qadın modelini göstərməlidirlər; deməlidirlər ki, müsəlman qadın həm dinini, hicabını, qadınlığını, incəlik və lətafətini qoruyan, həm öz haqqını müdafiə edən, həm də mənəviyyatda, elmdə, tədqiqatda, Allaha yaxınlıqda uğurla irəliləyən, görkəmli şəxsiyyət təqdim edən, həm də siyasi işlərdə fəal iştirak edən qadındır. Bu olur qadın örnəyi.

*Böyük Rəhbərin qadınlarla görüşdə çıxışından: 2000.*

## Qadın və kişi münasibətləri üzərində işləmək

Bizim fikrimizcə, İslam əxlaqı və İslam qanunlarında qadın və kişi münasibətləri mövzusunda daha çox işləmək lazımdır. Bəzi adamlar dindardırlar, amma İslam məfhumları ilə düzgün tanış olmadıqlarına, İslamda qadın və kişi münasibətlərinə dair əxlaq məsələlərini düzgün bilmədiklərinə görə dindarlıqları ailədə sərtliklərinin, hökmranlıq və hegemonluq etmələrinin azalmasına bais olmur; həm dindardırlar, həm də hegemonluq edirlər. Bunu da islah etmək lazımdır. Qadın və kişi münasibətlərində, xüsusən də ailə daxilində İslam əxlaqına diqqət yetirilməlidir. Sözsüz ki, hicab məsələsi çox mühüm məsələdir. Mən hicab məsələsini həqiqətən mühüm sayıram. Hicabın əhəmiyyəti bəzi yerlərdə, o cümlədən ailə məsələlərində özünü göstərir.

*İslam İnqilabının Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü ərəfəsində alim qadınlarla görüşdə çıxışından: 2007.*

**Hicab - insanın təbiətinə uyğun dəyər**

Hicab insan təbiətinə uyğun dəyərdir. Çılpaqlıq, ayrı-ayrı cinslərin bir-biri ilə qarışması və üryan edilməsi qeyri-təbii və insan istəyinin əksinə olan bir işdir. Müqəddəs İslam şəriəti də bunun üçün bəzi hədlər müəyyən edib. Etiqadlı və mömin olanlar hicabla belə rəftar edə bilməzlər. Kimlərsə məlumatsız ola bilərlər, onları maarifləndirmək lazımdır. İnqilabın ilk illərində mənə tam aydın oldu ki, hicabın qədrini lazımınca bilməyən hicablı xanımların bəzisinin ümumiyyətlə hicabın hökmündən, fəlsəfəsindən və faydalarından xəbəri yoxdur. Yəni bunlarla az danışılıb. Əlbəttə, bəziləri bir şeylər yazdılar; tövsiyə etdik bəzi işlər görüldü. İndi də mənim fikrimcə, xüsusən universitetlərdə elədir. Allaha şükür olsun ki, sizin universitetinizin yaxşı olduğunu eşitdim. Universitetin rəhbərləri də etiqadlı və ehtiyatlı insanlardır. Ümidvarıq zaman ötdükcə daha da yaxşılaşsın.

*Tələbə nəşriyyələrinin baş redaktorları və məsul şəxsləri ilə sual-cavab toplantısındakı söhbətlərdən: 1999.*

**Hicab qadın fitrətinə uyğundur!**

İslam quruluşunda yaradılan məhdudiyyət qadın fitrətinə uyğun məhdudiyyətdir; həm kişilər üçün məhdudiyyət var, həm də qadınlar üçün. Bu onların potensial qüvvələrinin hədər getməməsinə və imkan daxilində düzgün istiqamətdə işlədilməsinə kömək edir. Bunun nəticəsi qadınlar arasında bu gün müşahidə etdiyimiz düşüncə, elm və əməl inkişafıdır. Bu birinci məsələ. Hələ də bəzi adamlar çox nadancasına deyirlər ki, məgər qadın hicab bağlasa, şəriət və İslam qaydalarına riyaət etsə, inkişaf edə bilərmi? Yaxud deyirlər ki, İslam quruluşunda qadın məsələsi necə həll olunur? Bunun əməli və real cavabı bizim cəmiyyətimizdə olan alim qadınların böyük toplumudur. Bizim ölkəmizdə heç vaxt belə hal olmamışdır. Tağut dövründə də olmayıb, orta təhsil vəziyyətinin başqa bir cəhətdən nöqsanı olduğu öncəki dövrdə də olmayıb. Allaha şükür olsun ki, bu gün İslam cəmiyyətində bu vardır. Universitetdə əlaçı qızların çoxluğu və bu kimi məsələlər ikinci dərəcəli məsələlərdir. Birinci dərəcəli məsələ budur ki, alim qadınlar İslam Respublikası quruluşunda müxtəlif sahələrdə parlaya bilmişlər.

*İslam İnqilabının Böyük Rəhbərinin həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü ərəfəsində alim qadınlarla görüşdə çıxışından: 2007.*

## Əlavə

## Həzrət Fatimeyi-Zəhranın (ə) doğum günü münasibətilə Qadınların mədəni-ictimai şurasının üzvləri, mütəxəssis həkimlər və İslam hicabı konfransının məsul şəxsləri ilə görüşdə çıxışı: 25 dekabr 1991.

**Bismillahir-Rəhmanir-Rəhim.**

**Qadın məsələlərinə dair yanlış baxış və dar düşüncə**

Çox xoş gəlmisiniz! Allaha şükür olsun ki, ölkəmizin görkəmli qadınlarının fikir istiqamətinin gələcəyi ümidverici və sevindirici olan bir səmtə yönəldiyini gördüm. Buna sevinirəm. Mən də qarşılıqlı olaraq tarixin və bütün nəsillərin qadınlarına örnək, kamil və ilahi bir insan nümunəsi olan həzrət Zəhranın (ə) doğum günü münasibəti ilə siz əziz bacıları, ölkəmizin bütün qadınlarını, bütün müsəlman qadınları və bütün dünya müsəlmanlarını təbrik edirəm.

Bu gün hələ də dünyada bir problem olan qadın məsələsi barədə çoxlu sözlər deyilib və deyilir. Biz dünyanın insani xəritəsinə və bəşər cəmiyyətlərinə baxdıqda - həm öz ölkəmiz və digər İslam ölkələri kimi müsəlman cəmiyyətlərinə, həm də qeyri-müsəlman, o cümlədən, necə deyərlər, sivil və inkişaf etmiş cəmiyyətlərə baxdıqda təəssüf ki, bu cəmiyyətlərin hamısında qadın problemi adlı bir problemin hələ də mövcud olduğunu görürük. Bu, insani problemlərə qarşı bir növ yanlış baxışın və yanlış gedişin göstəricisidir, insan problemlərinə qarşı bir növ dar düşüncədən xəbər verir.

Bəlli olur ki, bəşər bütün iddiaları, ixlaslı və xeyirxah insanların bütün səyləri, xüsusən qadın barədə görülən böyük mədəni işlərlə yanaşı, hələ iki cinsin problemi, qadın problemi və onun ardınca digər formada meydana çıxan kişi problemi barədə hələ də düzgün yol tapa bilməmişdir. Bəlkə də siz xanımların arasında dünyanın yazıçı və sənətkar qadınlarının, bəziləri fars dilinə tərcümə olunmuş, bəziləri isə orijinal şəkildə mövcud olan ədəbi və incəsənət əsərlərini görən, yaxud oxuyan şəxslər var. Bunların hamısı qeyd olunan məsələdən xəbər verir: bəşər hələ də qadın problemini, bunun ardınca yaranan iki cinsin, yəni qadın və kişinin problemini və zəruri olaraq insaniyyət problemini həll edə bilməmişdir. Başqa sözlə desək, ifratçılıqlar, yanlış işlər, yanlış anlamalar və bunların ardınca təcavüzlər, zülmlər, psixoloji pozuntular, ailə problemləri, iki cinsin qarışmasına və münasibət tərzinə aid olan

problemlər hələ də bəşəriyyətin həll olunmamış problemlərindəndir. Yəni maddi sahələrdə, kosmosda, dənizlərin dibində bu qədər kəşflər edən, psixoloji, ictimai, iqtisadi və digər sahələrin xırdalıqlarından bu qədər dəm vuran və doğrudan da bu fənlərin çoxunda inkişaf etmiş insan bu məsələdə aciz qalmışdır. Mən bu çatışmazlıqları yalnız sadalamaq istəsəm, çox vaxt lazım olar və özünüz bunları bilirsiniz.

**Dünyada qadın böhranı**

Bu gün dünyada mühüm bir məsələ olan ailə problemi qadın məsələsinə, yaxud qadın və kişi münasibətlərinə baxış tərzindən qaynaqlanır. Nə üçün bəşər varlığının təbii və mühüm bir ocağı olan ailə indi dünyada bu qədər böhrana düçar olmuşdur? Belə ki, bugünkü, necə deyərlər, sivil Qərb dünyasında ailə təməlinin möhkəmləndirilməsinə dair hətta çox yumşaq bir sözü də yaxşı qarşılayırlar; həm qadınlar yaxşı qarşılayırlar, həm kişilər, həm də uşaqlar. Əgər siz dünyadakı ailə probleminin bu bir cəhətini araşdırsanız, ailə məsələsində yaranmış böhranı düzgün və diqqətlə araşdırsanız, görərsiniz ki, bu, iki cinsin münasibətlərinə, birgəyaşayışına və qarşılıqlı əlaqələrinə aid məsələlərin həll olunmamasından irəli gəlir. Başqa sözlə desək, baxış yanlış baxışdır. İndi biz kişilər tərəfdə durub deyirik ki, qadın məsələsinə baxış düzgün deyil. Ancaq əslində kişi məsələsinə baxış da düzgün deyil, fərqi yoxdur. Yaxud iki cinsin keyfiyyətinə, yəni onların yertutma formasına baxış yanlışdır.

**Bugünkü Avropa mədəniyyətinin kökünün qədim Roma mədəniyyətinə qayıtması**

Bugünkü Avropa mədəniyyətinin kökü qədim Roma mədəniyyətinə qayıdır. Yəni bu gün bütünlüklə Avropa və Qərb mədəniyyətinə və bunun ardınca Amerika mədəniyyətinə hakim olan elementlər Roma imperiyasında mövcud olan qayda və prinsiplərdir. Bugünkü meyar onlardan ibarətdir. O zaman da qadınları böyük məqama ucaldıb, hörmət edirdilər, müxtəlif zinətlərlə bəzəyirdilər.

Amma nə üçün? Kişidə mövcud olan ən aşağı və ən maddi hissi doyurmaq üçün. Bu, insana və qadına qarşı necə də böyük təhqirdir!

İranda da eynilə belə olmuşdur. Sasani şahlarının hərəmxanaları haqda məlumatınız var. Hərəmxana qurmaq nə deməkdir? Hərəmxana qurmaq - qadını təhqir etməkdir. Bir kişi imkanı çatdığına görə özünü hərəmxanasında min qadın saxlamağa haqlı bilir. Əgər həmin şahın bütün xalqı da belə imkana malik olsaydı, hər biri öz qədərincə min, beş yüz, dörd yüz, yaxud iki yüz qadın saxlayardılar. Bu, qadına necə baxışdan xəbər verir?

**Fatimeyi-Zəhra (ə) – insaniyyətin zirvəsi**

Belə bir dünyada əziz Peyğəmbər (s) elə bir qız tərbiyə edir ki, bu qız əlinin Allahın Peyğəmbəri (s) tərəfindən öpülməsinə layiq olur. Peyğəmbərin (s) Fatimeyi-Zəhranın (ə) əlini öpməsini duyğusal bir mənada izah etmək əsla düzgün deyil. Əgər biz qızı olduğundan və onu sevdiyindən əlini öpdüyünü düşünsək, bu çox səhv və çox kiçik bir məsələ olar. Məgər belə bir dəyərli şəxsiyyət, özü də Allah vəhyinə və ilhamına arxalanan ədalətli və hikmətli bir insan əyilib qızının əlini öpər? Xeyr! Burada məqsəd və məna başqadır. Bu onu göstərir ki, bu gənc qız, dünyadan köçərkən on səkkizdən iyirmi beşə qədər - on səkkiz də deyiblər, iyirmi beş də deyiblər - yaşı olan bu xanım insani paklığın zirvəsində durmuş və qeyri-adi bir şəxs olmuşdur. Bu, İslamın qadına baxışıdır. Bunu həm Qadınların mədəni-ictimai şurasının üzvü olan bu xanımların məşğul olduğu mədəni və ictimai araşdırmalarda, həm də siz alim qadınların məşğul olduğu elmi işlərdə araşdırın.

**Qadın və kişidə insani cəhət inkişaf etməlidir!**

Elm çox əziz bir şeydir. Mən bizim cəmiyyətimizdə qadınların bütün fənlərdə alim olmasının tərəfdarıyam. Əlbəttə, ötən il, yaxud ondan qabaqkı il keçirilən iclasda mən tibb fənnini prioritet göstərirdim. Ona görə ki, həkimlik bizdə aktual və təcili zərurətdir. Lakin əslində qadınlar bütün fənlərdə öz yüksək istedadlarını işlətməlidirlər.

Bizim ölkəmizin əlli milyon əhalisi arasında müxtəlif yaşlarda bu ölkəyə fayda yetirə bilən otuz, yaxud otuz beş milyon insan varsa, təbii ki, bu otuz beş milyonun yarısı qadınlardır. Məgər bunların vücudundakı ilahi xəzinələri görməzdən gələ bilərikmi?! Bunların arasında alim də olmalıdır, lakin elm bütün əzəmətinə rəğmən, Allah-Taalanın qadına verdiyi mənəvi heysiyyətin qarşısında bir şey deyil.

Siz elmin yüksək səviyyəsində olan, lakin insan məsələlərində və bəşər münasibətlərində iki cinsiyyətdən biri olaraq pozğunluğa düçar olmuş bir qadını təsəvvür edin. Siz elə bilirsiniz bunun dəyəri var? Düzdür, alim olan qadın müəyyən mənada bu pozğunluqlara daha az düçar olur. Savadsızlığın zərərlərindən biri budur ki, qadınları pozğunluğa daha çox çəkir. Lakin pozğunluq həddi məhdud bir hədd deyil. Hətta yüksək elmi səviyyədə olan bir xanımda da əziz insani cəhətin qədri bilinməyə (o cəhət kişidə də əzizdir, qadın və kişi bunu özlərində canlandırmaq üçün çalışıb elm və hikmət öyrənirlər), diqqətdən və hörmətdən kənarda qala bilər. Bunun dəyəri varmı?! Qadında və kişidə olan insani cəhət inkişaf etdirilməlidir. Bu bir dəyər məsələsidir. Bizim cəmiyyətimizdə İslamın dəyər məsələləri dirçəlməlidir. Misal üçün, hicab məsələsi bir dəyərdir. Hicab məsələsi daha yüksək məsələlərə giriş olmasına baxmayaraq, özü bir dəyərdir. Bizim hicab üzərində bu qədər təkid göstərməyimiz ondan ötrüdür ki, hicabı qorumaq qadının öz uca mənəvi dərəcəsinə çata bilməsinə və yolunda yaradılmış çox təhlükəli uçurumlara yuvarlanmamasına kömək edir.

**Qərb mədəniyyətinin cinsi dözümlülüyə qarşı çıxması**

Bu mədəniyyətin tam əksi bugünkü Avropaya hakim olan Roma mədəniyyətidir. O hər şeylə razılaşır, iki-üç şeydən başqa. Onların biri və bəlkə də ən əhəmiyyətlisi qadın və kişi cinsi arasında qanun-qaydalı məsafənin qorunması, başqa sözlə desək, Qərbdə cinsi azadlıq adlandırılan məsələnin əksi olan cinsi dözümlülükdür. Onlar bu prinsip qarşısında çox kəskin mövqedədirlər, başqa nə etsələr, önəmli deyil.

Onlara görə mürtəce bu məsələ üzərində dayanan şəxsdir. Əgər bir ölkədə qadınların müəyyən qaydalarla kişilərlə məsafəsi olsa, bu, mədəniyyətə ziddir. Doğru deyirlər. Onların Roma sivilizasiyasının xarabalıqları üzərində qurduqları sivilizasiya bundan başqa bir şey deyil. Dəyər baxımından isə yanlış, əksi isə düzgündür.

**Bir müddət öncəyə qədər Qərbdə qadınların müstəqil əmlak hüququ yox idi!**

Biz keçmiş zamanlardan indiyə qədər qadını bu qədər təhqirə məruz qoyan Qərb dünyasına qarşı tələbkarıq. Siz baxın, Avropada və Qərb ölkələrində bir müddət öncəyə qədər qadınların müstəqil əmlak hüququ yox idi. Mən bir dəfə diqqətlə buna dair statistika çıxardım və bir söhbətdə - deyəsən dörd-beş il bundan öncəki cümə namazında bəyan etdim. Misal üçün, irəli sürülən bütün iddialarla, Qərbdə günbəgün daha artıq müşahidə olunan maraqlı və qəribə hicab açılımı ilə, sonsuz və nəzarətsiz cinsi qarışmalarla - elə bilirlər ki, bu, qadına hörmət və dəyər bildirməkdir - yanaşı, iyirminci əsrin əvvəllərinə qədər qərbli qadının özünə aid olan sərvətdən azad şəkildə istifadə etmək haqqı olmamışdır, əri qarşısında özünün şəxsi əmlakına malik olmamışdır. Yəni bir qadın ərə getdikdə onun sərvəti və bütün mülkü ərinin ixtiyarına keçirdi, ondan istifadə etməyə haqqı çatmırdı. Nəhayət iyirminci əsrin əvvələrində tədricən qadınlara mülkiyyət hüququ, iş hüququ verildi. Yəni qadın ən elementar insan hüquqlarından məhrum idi. Amma İslamda da hörmət olunan belə həqiqi dəyərlərin tam əksi üzərində daha çox təkid olundu. Bizim hicab barədə bu qədər təkid göstərməyimizin səbəbi budur.

**Qadın geyimi mövzusu Qərbin əks-təbliğatından təsirlənməsin!**

Bizcə, qadın geyimi haqqında olan söhbətlər çox yaxşı söhbətlərdir. Lakin diqqət yetirmək lazımdır ki, bu sahədə olan heç bir məsələ Qərbin əks-təbliğatından təsirlənməsin. Əgər ondan təsirlənsə, zərərli olacaq. Məsələn, fikirləşək ki, hicabımız olsun, lakin çadramız olmasın. Bu

yanlış fikirdir. Əlbəttə, demək istəmirəm ki, çadra yeganə geyim növüdür. Xeyr! Mən deyirəm çadra hicabın ən yaxşı növüdür, bizim milli əlamətimizdir, heç bir eybi də yoxdur və qadının heç bir hərəkəti ilə ziddiyyət təşkil etmir. Əgər həqiqətən məsələ hərəkət, ictimai-siyasi işlər və fikir işləri olsa, çadra qadının rəsmi geyimi ola bilər. Qeyd etdiyim kimi, çadra hicabın ən yaxşı növüdür.

Düzdür, çadrasız da hicablı olmaq mümkündür. Lakin onun sərhədlərini mütləq müəyyənləşdirmək, tapmaq lazımdır. Bəziləri Qərbin əks-təbliğatından qurtulmaq üçün çadradan qaçırlar. Lakin çadradan qaçarkən çadrasız həqiqi hicaba üz tutmurlar. Çünki Qərb ona da hücum edir. Siz elə bilirsiniz biz çadranı kənara qoysaq, məsələn, Qurani-kərimdə də göstərilən[1] paltar və örpəklərdən istifadə etsək, bizdən əl çəkəcəklər? Xeyr! Onlar bununla qane olmayacaqlar. Onlar istəyirlər ki, özlərinin çirkin mədəniyyəti şah dövründə olduğu kimi, eynilə burada hakim olsun. O zaman qadının ümumiyyətlə hicabı yox idi. Hətta bu yerlərdə növbə belə işlərə çatanda pozğunluq daha çox olur. Şahın dövründə bu Tehranda və ölkəmizin başqa şəhərlərində olan pozğunluq Avropa şəhərlərindən çox idi. Avropada adi qadının paltarı və geyimi vardı.

**Fəaliyyətlərinizin kənarında evin payını da nəzərə alın!**

Sizin işiniz də var, həm də bayırdasınız, cərrahiyyə əməliyyatı da edirsiniz, xəstənizi də görürsünüz, elmi işlə də məşğul olursunuz, layihə də yazırsınız, universitetdə dərs də deyirsiniz. Bunların hamısı öz yerində, amma evin payını da nəzərə almalısınız. Əlbəttə, bütün məsələlər kimi bunda da kəmiyyət keyfiyyətə qurban verilə, yəni azaldıla bilər. Əgər 24 saat evdə ola bilmirsinizsə, olduğunuz müddətin keyfiyyətini yüksəltməlisiniz. Lakin işinizin buna zərər yetirdiyini görsəniz, bu haqda bir şey düşünməlisiniz. Bu daha əhəmiyyətli və əsaslıdır, məcbur qaldıqda isə, heç.

---

[1] Nur/31.

Bütün məsələlərdə qaydadan xaric olan zəruri işlər olur. Mən qaydanı deyirəm, istisnalarla işim yoxdur. Eşitdim qadınlara məxsus universitet açmaq barədə söhbətlər gedir; yəni müəllim, rektor, tələbə, hətta işçilərinin hamısı qadın olsun, xüsusən də tibb universitetləri. Bu çox yaxşı fikirdir. Mən eləcə uzaqdan baxır, məsələnin tərəflərini dəqiq araşdırmadan - çünki buna imkanım yoxdur - görürəm ki, icmali olaraq bu iş qadının cəmiyyətimizdəki hərəkətinin ümumi və dəyər məqsədlərinə tam uyğun və çox yaxşıdır. Ümidvaram inşallah uğur sizinlə olsun!

**İnqilabda və müharibədə qadınların rolunun təyinedici olması**

Ümidvarıq ki, qeyd olunan maneələr bizim qadınlarımızın önündən götürülsün və onlar inkişa edə bilsinlər. Allaha şükür olsun ki, inqilab ölkəmizin qadın toplumuna böyük kömək etdi. Mən elə ailə və qadınlar görmüşəm və görürəm ki, acı hadisələr qarşısında fədakarlıqları və dözümlülükləri kişilərdən çoxdur. Mənim şəhid ailələri ilə görüşlərim çox olur. Dəfələrlə demişəm ki, bu böyük hadisəyə dözmək sarıdan şəhidlərin anaları əksərən atalarına nisbətən daha yaxşı əhval-ruhiyyəli və daha dözümlüdürlər. Düzdür, bunun əksi də baş verir, amma belələri daha çoxdur və mən bunu daha çox görmüşəm. Bu böyük inqilaba görə qadınlar çox-çox inkişaf etdilər.

İnqilabda qadınların rolu həlledici olmuşdur. Müharibədə də həlledici oldu, gələcəkdə də inşallah həlledici olacaq. Bu şərtlə ki, biz qadında olan bu dəyərli cəhətlərə riayət edək. Gələcəyi təmin edən amil budur. Ümidvarıq Allah sizə kömək olsun!

## Qadınlar dəbdəbəliyə sarı sövq olunmamalıdırlar!

Söhbətimin sonunda bir cümlə də demək istəyirəm. Dəbdəbəliyə meyl uzun müddət bizim cəmiyyətimizdə azalmışdı. İnqilabın əvvəllərində qadınlar dəbdəbə və zinətlərə etinasız yanaşırdılar. Lakin təəssüf ki, bu məsələlər indi bizim cəmiyyətimizdə inkişaf etməkdədir.

Cəmiyyətimizin düşüncəli, mütəfəkkir və etiqadlı qadınları bunu təhlükə bilməlidirlər. Qadınlar dəbdəbəliyə sarı sövq olunmamalıdırlar.

Əlbəttə, bu təhlükə kişilər üçün də var. Lakin uyğun potensial qadınlarda daha artıqdır. Həm də bu məsələlərdə kişilərin çoxu qadınların təsiri altına düşürlər. Siz bu məsələyə qarşı ciddi mübarizə aparmalısınız. Özünüz də nəzarət edin. Mən az, normal və çəkinməsi mümkün olmayan həddə dəbdəbəliyin əleyhinə deyiləm, lakin ifrat şəkil asla, olduqca əbəs bir işdir. Xanımlar növbənöv paltarlara, bəzənməyə və qızıl-zinət əşyalarına etinasız yanaşmağa, bu məsələlərdə ifratdan çəkinməyə əhəmiyyətli baxmalıdırlar. Bu zaman Allahın lütfü ilə belə zahiri gözəlliklərə yox, həqiqi gözəlliklərə diqqət artacaq. İnşallah müvəffəq olasınız. Söhbət uzandı, amma yenə də bu mühüm məsələ barədə sözlərin çoxu deyilmədi. İnşallah Allah sizə yardım etsin və işləriniz uğurlu olsun! İnşallah dövrün imamının lütfü sizə şamil olsun və İslamın böyük qadınlarının, xüsusən də Fatimeyi-Zəhranın (ə) yolunu davam etdirmək səadətinə nail olasınız!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!